# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə).

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1.461 manat təşkil etmişdir.

Ümumi məhsul istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 60,7 faiz təşkil etmişdir.

9 ay ərzində sənaye müəssisələrində çalışan 976 nəfər işçinin orta aylıq nominal əmək haqqı 376 manat olmuşdur.

Rayonda 2003-cü ilin oktyabr ayından 2015-ci ilin müvafiq dövrünədək 11.400-ü daimi olmaqla 13.448 yeni iş yeri açılmışdır. Cari ilin 9 ayında isə yeni açılmış daimi iş yerlərinin sayı 752 olmuşdur.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 58.589 min manat, tikinti- quraşdırma işlərinin həcmi isə 56.075 min manat təşkil etmişdir.

Yerli gəlirlərimiz 2015-ci ilin 9 ayında 9.272,2 min manat proqnoza qarşı 9.355,6 min manat (101 faiz) və ya 83,4 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 6.130 min manat dürüstləşdirilmiş proqnoza qarşı 5.372 min manat (88 faiz) və ya 758 min manat az, yerli xərcləri dürüstləşdirilmiş 15.402,2 min manat proqnoza qarşı 13.899,3 min manat (90 faiz) və ya 1.502,9 min manat az icra olunmuşdur.

Rayonun yerli xərcləri təhsil üzrə 719,8 min manat, səhiyyə üzrə 61,5 min manat, icra hakimiyyəti orqanlarının saxlanması üzrə 186,6 min manat, mədəniyyət üzrə 42,4 min manat, mənzil təsərrüfatı üzrə 74,1 min manat, kommunal təsərrüfat üzrə 390,7 min manat və digər xərc maddələri üzrə 27,8 min manat olmaqla, ümumilikdə 9 ayda 1.502,9 min manat təyinatdan az icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış dövlər rüsumu və sair daxil olmalar üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 2.190,6 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 2.274 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 83,4 min manat çox yerinə yetirilmişdir.

Yerli büdcənin hesabında 1 oktyabr 2015-ci il tarixə 828,3 min manat vəsait qalığı yaranmışdır.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

9 ay ərzində bütün növ istehlakçı qruplar tərəfindən 78.533,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 4.712,0 min manata qarşı 4.279,7 min manat vəsait toplanaraq 9 aylıq yığım planı 90,8 faiz yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 70,3 faiz, dövlət müəssisələri üzrə 50,8 faiz, ticarət xidməti üzrə 94,6 faiz, özəl sənaye üzrə 98,3 faiz, əhali qrupu üzrə isə 81 faiz olmuşdur. 9 ay ərzində 10/0,4 kV-luq transformator yarımstansiyasının 24 ədədində təhlükəsizlik texnikası qaydalarının bərpası üçün 400 A-lik və 250 A-lik ayrıcı quraşdırılmışdır. 10/6 kV-luq hava xəttinin 18,2 km məsafəsində 42 min manat dəyərində əsaslı və cari təmir işləri görülmüşdür. 10 kV Bum, Vəndam, Laza, Hacıalılı, Qaradeyin, Mıxlıqovaq, Nic, Tüntül, Dizaxlı, Zalam, Zarağan hava xətlərində KD-10,5, KD-9,5 tipli 75 ədəd dayaq basdırılmış, 2.516 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 0,4 kV-luq Zarağan, şəhər 1,2,3,4,5, Vəndam,Tüntül,Bum hava xətlərində yaşıl kütlədən təmizləmə işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 30.895,7 min kub/metr təbii qaz istehlak edilmiş, istifadəçilərdən 3.089,6 min manata qarşı 3.109,6 min manat vəsait toplanmışdır. Həmin göstərici əhali sektoru üzrə 100 faiz, büdcə təşkilatları üzrə 101,3 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə üzrə isə 101,6 faiz olmaqla, ümumi yığım məbləği 100,6 faiz təşkil etmişdir. 9 ay ərzində 225 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 12.071-ə çatdırılmışdır. 2015-ci ilin 9 ayında MRCC (Modern Reliable and Civie Construction) MMC tərəfindən Bum qəsəbəsində 51.971 p/m, Qəmərvan kəndində 4.261 p/m, Mətin Qaz İnşaat MMC tərəfindən isə Nic qəsəbəsində 56.728 p/m, Yengicə kəndində 14.608 p/m, Tüntül kəndində 22.474 p/m, Vəndam qəsəbəsinin Rüsyan massivində 7.784 p/m (ümumilikdə 159.552 p/m) yeni qaz xətti çəkilmişdir. Bundan əlavə Qəbələ Xidmət Sahəsinin daxili imkanları hesabına 2.544 p/m müxtəlif diametrli xətlər yenisi ilə əvəz olunmuşdur;

Qəbələ Sukanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarları lil və qumdan təmizlənmiş, qurğularda cari təmir işləri görülmüşdür.

Şəhərin Heydər Əliyev, Mirzə Fətəli Axundov, İsmayıl bəy Qutqaşınlı, İmadəddin Nəsimi və Məcid Mərdanov küçələrində aparılan abadlıq işləri ilə əlaqədar mövcud su təchizatı və kanalizasiya xətlərində müxtəlif diametrli borular dəyişdirilmiş, təmir-bərpa işləri görülmüşdür. Qəbələ-2 şəhərciyində bir artezianın nasosu dəyişdirilmişdir. Şəhərin İsmət Qayıbov və Seyid Əzim Şirvani küçələrində 1.420 p/m su xətti yenilənmiş, 80-ə yaxın abonentin su xətləri bərpa edilmişdir. İsmayl bəy Quqaşınlı küçəsində plastik borularla 300 p/m su xətti çəkilmiş, 30-a yaxın abonentin su xətti təmir olunmuşdur. Beşmərtəbəli yaşayış binalarının zirzəmi hissəsində su və kanalizasiya xətləri təmir edilmişdir. Binalarda 402 p/m kanalizasiya, 411 p/m su xətləri yenilənmiş, yeni 100 kub/metrlik su anbarı tikilmişdir. Eləcə də İsmət Qayıbov, Seyid Əzim Şirvani, İbrahim bəy Musabəyov, Cəfər Cabbarlı, Vahid Qəhrəmanov küçələrində 5.811 p/m kanalizasiya, 1.634 p/m su xətləri çəkilmişdir.

9 ay ərzində 210,7 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 88,5 faizi istehlakçılardan yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 90 faiz, büdcə üzrə 94,3 faiz, kommersiya və digər təşkilatlar üzrə 70,1 faiz təşkil etmişdir.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 may 2013-cü il tarixli 2894 nömrəli, 29 yanvar 2014-cü il tarixli 237 nömrəli, 25 dekabr 2014-cü il tarixli 961 nömrəli sərəncamlarına əsasən bu il Dizaxlı, Aydınqışlaq və Qaradeyin kəndlərində yeni subartezian quyuları qazılaraq istifadıyə verilmişdir.

Mirzəbəyli, Cığatelli, Seyidqışlaq, Bəyli, Məmmədağalı, Bunud və Həmzəli kəndırində isə yeni subartezian quyularının qazılmasına başlanılmışdır. Hazırda həmin yaşayış məntəqələrində qazma işləri davam etdirilir.

Qəbələ Rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən bu ilin ötən dövrü ərzində 310,6 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya qovşağı 930 min manat tarif gəliri proqnozuna qarşı 931,2 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 100,1 faiz əməl etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz, yəni 27,3 min manat artıq gəlir əldə edilmişdir. Rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin ümumi montaj tutumu 11.980 nömrəyə çatdırılmışdır. Hazırda hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. 9 ay ərzində Qəbələ şəhərində abadlıq işlərinin görülməsi ilə əlaqədar İbrahim bəy Musabəyov küçəsində mövcud yerüstü xətlər yeraltı vəziyyətə gətirilmiş, Nic qəsəbəsində, Uludaş, Yemişanlı kəndlərindəki xətt təsərrüfatında təmir işləri başa çatdırılmışdır. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilər 4.492, özəl provayderlər 497 olmaqla, ümumi istifadəçilərin sayı 4.989 nəfərə çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə internet abunəçilərinin sayı 27 faiz, yəni 1031 abunəçi artmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 175,5 min manata qarşı 171,2 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 97,5 faiz və yaxud 4,3 min manat kəsrlə yerinə yetirmişdir. Lakin keçən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 min manat artım olmuşdur.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hazırda 3.584 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 259,8 min manat təşkil edir. 9 ay ərzində 81 nəfər 18 yaşadək əlil uşağa, 133 nəfər I,II və III qrup əlillərə, 26 ailənin 62 uşağına ailə başçısını itirməyə, 19 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 870 ailədə 920 uşağın anadan olmasına görə, 23 nəfərə isə vəfat edənlərin dəfni üçün birdəfəlik müavinət ödənmişdir. 831 ailəyə ünvanlı sosial yardımı təyin edilmiş və 1 yaşadək uşağı olan 42 ailənin uşaqlarına müavinət verilmişdir. Hazırda mərkəzdə 980 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ Rayon Şöbəsi tərəfindən 2015-ci ilin 9 ayında gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 6.282,0 min manata qarşı 5.232,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanılmış, proqnoz tapşırığa 83,3 faiz əməl olunmuşdur. Ötən dövr ərzində 998 sığortaedən qeydiyyata alınmışdır. Bunlardan 37-si hüquqi, 822-si fiziki şəxslər, 139-u isə pay torpaq mülkiyyətçiləri olmuşdur. 1 oktyabr 2015-ci il vəziyyətinə görə şöbədə 11.532 pensiya işi üzrə 11.831 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 15.966,9 min manat pensiya, 376,6 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 1.770,6 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 153 manat 54 qəpik təşkil etmişdir.

Rayon məşğulluq mərkəzində cari ilin ötən dövrü ərzində işsiz və işaxtaran kimi 610 nəfər vətəndaş qeydiyata alınmış, onların 18 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçənlərin 294-ü münasib işlə təmin edilmişdir. Mərkəz tərəfindən qeydiyyatda olan 9 nəfər işaxtaran vətəndaş müvəqqəti işlərə, 5 nəfəri qadın olmaqla 17 nəfər "Sahibkarlığın əsasları" peşə kursuna, 5 nəfər işaxtaran vətəndaş isə Qəbələ Suvarma Sistemləri İdarəsi ilə bağlanmış müqaviləyə əsasən 1 ay müddətinə haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur. Cari ilin ötən dövrü ərzində 21 nəfər işsiz vətəndaşa müavinət təyin edilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından mühafizəsi, kənd təsərrüfatının suvarma suyu ilə təchizatı məqsədilə suvarma kanalları ilin əvvəlindən 449 min kubmetr lildən, 875 min kubmetr çay məcrası isə qumdan təmizlənmişdir. Çaylarda 238 kubmetr qabion bəndi salınmış, 2.254 kubmetr daş-beton bəndi cari təmir edilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ilin ötən dövrü ərzində rayonda tikinti-quruculuq işləri də uğurla aparılmışdır. Yeni dərs ilinin başlanması münasibətilə sentyabrın 15-də Qəbələ Rayon İcra Hakimiyyətinin sifarişi ilə inşa edilmiş şəhər 5 saylı tam orta məktəbin təzə binasının açılışı olmuşdur.

Həmçinin "Tufandağ" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinə daxil olan xizəkçilik mərkəzində, "Tufandağ" Otelində və YAP Qəbələ Rayon Təşkilatının inzibati binasında tikinti-quraşdırma işləri başa çatdırılmışdır.

(Ardı 5-ci səhifədə).